# Dahi Qara Qarayevin 98 yaşı tamam olur

**Azərbaycan klassik musiqisinin dünyəvi adlarından olan dahi bəstəkar Qara Qarayevin fevralın 5-i dahi doğum günüdür. SSRİ Xalq Artisti, SSRİ-nin və Azərbaycanın dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, görkəmli ictimai və elm xadimi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Qara Qarayevin 98-ci yaş günü bu il də silsilə tədbirlərlə qeyd olunacaq. Azərbaycan və dünya musiqi mədəniyyətinə böyük töhfələr vermiş Qara Qarayev milli və bəşəri xarakterli yaradıcılığı ilə gələcəyə yeni yollar açan novator sənətkar olub. Onun hər bir əsərinin premyerası musiqi həyatımızın xüsusi hadisəsinə, bayramına çevrilib, mədəni həyatımızda bir dönüş yaradıb.**

Qara Qarayev 1918-ci il fevralın 5-də Bakı şəhərində məşhur həkim-pediatr Əbülfəs Qarayevin və şairə Sona xanım İsgəndər qızının ailəsində anadan olub. O, nəsildə özünü musiqi sənətinə həsr eləmiş ilk adamdır. Onun anası da musiqini çox sevərmiş, amma babasının izni olmadığından bu sənətin iziylə gedə bilməyib. Ürəyində incəsənət nisgili qalmış ana oğlunun musiqi sahəsində irəliləyişi üçün əlindən gələni əsirgməyib. Belə ki, Qara Qarayevin atası oğlunun həkim olmasını istəyirmiş.

Dünya şöhrətli bəstəkar Qara Qarayevin əsərləri SSRİ-nin əksər şəhərlərində, Los Ancelesdə, Polşada, Misirdə, İspaniyada, İtaliyada, Parisdə, Yaponiyada, Almaniyada keçirilən möhtəşəm musiqi tədbirlərində müvəffəqiyyətlə oynanılıb.



Onun Nizaminin "Yeddi gözəl" poemasından bəhrələnərək yazdığı "Yeddi gözəl" və Cənubi Afrika yazıçısı Piter Abrahamsının romanı əsasında yazdığı "İldırımlı yollarda" baletləri dünyanın bir sıra ölkələrində uğurla göstərilib. Bəstəkarın Birinci Simfoniyası Azərbaycanın ilk simfoniyaları arasında görkəmli yer tutur. "Don Kixot" simfonik qravürləri, "Leyli və Məcnun" (Nizaminin poeması əsasında), "Vyetnam süitası" əsərləri Qara Qarayev yaradıcılığının dəyərli səhifələridir. O, çoxsaylı filmlərə, o cümlədən "Dənizi fəth edənlər", "Qızıl eşelon", "Xəzər neftçiləri haqqında povest", "Uzaq sahillərdə" və digər filmlərə musiqi bəsləyib.

Qara Qarayev opera janrında da özünü sınayıb. O, "Vətən" operasının (C.Hacıyev ilə birlikdə) və fransız yazıçısı Anri Barbüsün əsəri əsasında "Zəriflik" monooperasının müəllifidir. Bəstəkar, həmçinin Azərbaycan musiqisi üçün yeni olan müzikl janrına müraciət edərək fransız dramaturqu E.Rostanın "Sirano de Brejerak" komediyası əsasında "Çılğın qaskoniyalı" müziklini yaradıb.

Qara Qarayev 1982-ci il mayın 13-də Moskva şəhərində dünyasını dəyişib, Bakıda Fəxri xiyabanda dəfn olunub.

**Şəfiqə Şəfa**